# *CHENOPODİUM* CİNSİ NÖVLƏRİNİN ETNOBOTANİKİ TƏSİR XÜSUSİYYƏTLƏRİ

**Nazilə Məmmədli, Nuri Mövsümova***

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu,*
*movsumovanuri@yahoo.com*

Müasir dövrdə dünya əhalisinin əksəriyyəti ənənəvi müalicə vasitələrinə və sağlam qidalanmaya, xüsusilə az məsrəflə əldə olunan yabanı floradan yararlanmağa üstünlük verir. Yabanı qida və dərman bitkilərinin axtarışı və bu bitkilərdən təbii birləşmələrin əldə olunması öz aktuallığı ilə daim diqqət mərkəzindədir və ilkin olaraq etnobotaniki araşdırmalara əsaslanır.

Dünya florasında *Chenopodiaceae* Vent. fəsiləsinin nümayəndələri qida, dərman, yem və s. faydalı xüsusiyyətləri ilə seçilir. Bunlar arasında *Chenopodium* cinsi növlərinin yabanı tərəvəz kimi etnobotaniki istifadəsinin qədim tarixə malik olması ilə əlaqədar xüsusi əhəmiyyət daşıdığını qeyd etmək olar [1].

Respublika ərazisində *Chenopodium* cinsinə aid 14 növ və 8 variasiya «Флора Азербайджана» [3], 15 növ isə "Bitki aləmi" [2] əsərlərində göstərilmişdir. Hazırda Botanika İnstitutunun Herbari fondunda 248 ədəd nüsxə olmaqla nümunələr saxlanılmaqdadır. Cinsin nümayəndələri arandan tutmuş aşağı dağ qurşağına qədər olan ərazilərdə, əsasən quru yamaclarda, otlaqlarda, əkinlərdə geniş arealda yayılmış, iştirak etdiyi senozlarda bolluq yaratmışdır. Əkin sahələrində daha çox alaq bitkisi kimi rast gəlinir. Növlərin əksəriyyəti çoxillik, birillik və ya ikiillik ot bitkiləridir.

Tədqiqat illərində Zaqatala, Qax, Yardımlı, Zərdab, Ağcabədi və Şəmkir rayonlarına təşkil olunmuş ekspedisiyalar zamanı *Chenopodium* cinsinin 13 növünün yayıldığı məlum olmuşdur. Yerli əhali arasında aparılmış etnobotaniki sorğular əsasında müəyyən edilmişdir ki, *Chenopodium album* L., *Ch.rubrum* L., *Ch. polyspermum* L., *Ch.murale* L., *Ch.urbicum* L. növlərinin cavan yarpaqları və zoğları qida kimi istifadə olunur, həmçinin heyvanların yeminə əlavə edilir. Sorğuların nəticələri göstərmişdir ki, yerli əhali tərə növlərinin dərman kimi istifadəsi barədə məlumatsızdır. Yalnız *Chenopodium vulvaria* L., *Ch. ambrosioides* L. növlərinin qurdqovucu, revmatizm və soyuqdəymə əleyhinə təsirə malik olduğu haqda məlumatlar toplanmışdır. Lakin xarici mənbələrdə digər növlərin tərkibində fenol birləşmələrinin, saponinlərin, terpenlərin, sterolların olduğuna dair məlumatlar vardır [4;5]. Bu da bitkilərin gələcəkdə antimikrob, antiviral, antifungal, antihelmintik, antioksidant, immunomodulyator və s. kimi istifadəsinin mümkün olduğunu göstərir.

**İstinadlar:**

1. Qasımov H. Naxçıvan Muxtar Respublikası florasının yabanı tərəvəz bitkiləri / H.Qasımov, S.C.İbadullayeva və b. Naxçıvan: Əcəmi, 2018, 410 s.
2. Əsgərov A.M. Azərbaycanın bitki aləmi (Ali bitkilər – Embryophyta) / A.M.Əsgərov. Bakı: TEAS Press, 2016, 444 s.
3. Флора Азербайджана (в 8 т.) / Баку: изд-во АН Азерб.ССР, т. I-VIII, 1950-1961.
4. Dembitsky V., Shkrob I. and Hanus L.O. Ascaridole and related peroxides from the genus Chenopodium, Biomed. Pap., 2008, 152, p. 209-215.
5. Kokanova-Nedialkova Z., Kondeva-Burdina M., Zheleva-Dimitrova D. et al. A New Acylated Flavonol Glycoside from Chenopodium foliosum // Rec. Nat. Prod., 2014, 8:4, p. 401-406.